“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.

Heydər ƏLİYEV




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZIRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 16 iyul 2015-ci il № 54 (1970) Qiyməti 25 qəpik


Azərbaycan Prezidenti İlham ƏLİYEV:

## “Bizim siyasətimiz Azərbaycanın milli maraqları üzərində qurulub”

***İyulun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib.***

***Dövlətimizin başçısı iclası giriş nitqi ilə açaraq əsasən, Yaxın Şərq və Avropa ölkələrində olan böhranlı vəziyyətdən danışıb. Prezident İlham Əliyev ənənəvi olaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminə toxunub və Avropa Birliyinin bu məsələyə biganə münasibətini tənqid edib.***



- Bu gün biz ənənəvi olaraq ilin altı ayının yekunlarını müzakirə edəcəyik. Bəri başdan demək istəyirəm ki, yekunlar çox müsbətdir. Azərbaycan uğurla inkişaf edir. İnkişaf dinamik xarakter daşıyır və deyə bilərəm ki, altı ay ərzində əldə etdiyimiz uğurlar tarixi uğurlardır. Ona görə ki, bu gün biz dünyanın müxtəlif yerlərində çox xoşagəlməz prosesləri müşahidə edirik. Yaxın Şərqdə vəziyyət həddindən artıq çox gərginləşib. Qanlı toqquşmalar dayanmır, qan tökülür və yeni müharibə ocaqları yaranır. Avropa dərin iqtisadi böhran içindədir və bu böhrandan hələ ki, çıxış yollarını tapa bilməyib. Eyni zamanda, biz mənəvi böhranın təzahürlərini də görürük və bu, bizi çox narahat edir.

Azərbaycan artıq uzun illərdir çalışır ki, bölgədə multikulturalizm dəyərləri üstünlük təşkil etsin. Bölgədə sülh, əmin-amanlıq, mehriban qonşuluq meyilləri güclənsin və bildiyiniz kimi, Azərbaycan tərəfindən bu istiqamətdə həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə çox önəmli addımlar atılır. Ancaq bununla bərabər, biz bəzi Avropa ölkələrində tam başqa mənzərəni görürük və bu, bizi narahat edir.

Mənəvi böhran, iqtisadi böhran bu gün artıq Avropada reallıqdır və əlbəttə ki, bu, bizi düşünməyə vadar edir və bu amilləri gələcək fəaliyyətimizdə mütləq nəzərə alacağıq. Azərbaycan Avropa qurumlarına nə dərəcədə inteqrasiya etməlidir? İnteqrasiya etməlidir, yoxsa etməməlidir? Yoxsa biz əməkdaşlıq formatına üstünlük verməliyik? Bu barədə mən şəxsən artıq neçə vaxtdır düşünürəm və hesab edirəm ki, gələcək aylarda yeni əməkdaşlıq mexanizmi, formatı və konsepsiyası hazırlanmalıdır.

Əslində, bu barədə biz artıq önəmli addımlar atmışıq. Bildiyiniz kimi, Azərbaycan Avropa İttifaqı ilə Assosiasiya Sazişinə qoşulmamışdır. Ona görə ki, bu saziş bizim maraqlarımıza uyğun gəlmir. Orada sadəcə olaraq bir mexanizm təklif olunurdu ki, bu, ikitərəfli əməkdaşlıqdan çox birtərəfli əməkdaşlığa bənzəyirdi və elə bil ki, o saziş bir göstəriş vərəqəsi idi. Bizə isə bu, əlbəttə ki, yaramır. Çünki Azərbaycan bütün ölkələrlə, bütün beynəlxalq təşkilatlarla bərabərhüquqlu münasibətlər qurur və biz fəaliyyətimizi bu prinsip üzərində davam etdiririk.

Digər məqamlar var idi ki, bizi qane etmirdi. Ona görə biz Avropa İttifaqına əməkdaşlıq təkliflərini irəli sürmüşük. Bu, tərəfdaşlıq müqaviləsi, strateji tərəfdaşlıq müqaviləsi ola bilər. Sadəcə olaraq, əməkdaşlıq, yaxud da ki, tərəfdaşlıq müqaviləsi ola bilər. Ancaq bu, bərabərhüquqludur və Azərbaycanın milli maraqları o sazişdə maksimum dərəcədə təmin olunmalıdır və dəyərlərimiz də, əlbəttə ki, bizim üçün ən önəmli yerdədir.

Hesab edirəm ki, bu gün müasir dünyada mənəvi dəyərlər haqqında daha çox danışmaq lazımdır. Çünki həm Yaxın Şərqdə, həm Avropada, MDB məkanında yaşanan böhranlı vəziyyət, o cümlədən mənəvi dəyərlər üzərində yaranıb. Münaqişələr bir çox hallarda bu səbəbdən qaynaqlanır. Ona görə biz Azərbaycanda, əlbəttə ki, bütün məsələləri dərindən təhlil edərək, ölkəmiz üçün, xalqımız üçün ən məqbul, ən yaxşı variantı seçirik və seçəcəyik.

MDB məkanında vəziyyət gördüyünüz kimi, o qədər də ürəkaçan deyil. Bir çox ölkələr böhranla bacara bilmirlər. Ukraynada böhran davam edir. Ermənistan demək olar ki, çöküb, iqtisadiyyatı çöküb. Ermənistanın kriminal diktatura rejimi artıq öz xalqını o qədər əzib ki, xalq buna dözə bilmir. Onu da qeyd etməliyəm ki, Ermənistan xuntası xalq hesabına varlanır. Bəlkə bir çoxları bunu bilmir. Ancaq Ermənistan dünya miqyasında bəlkə də xaricdən ən aşağı qiymətə qaz alan ölkədir. Ancaq öz əhalisinə bunu üç dəfə baha satır. Elektrik enerjisi də, yanacaq da həmçinin. Yəni, bu kriminal rejim xalqın qanını sorur. Əlbəttə ki, xalq buna dözə bilmir.

Biz oraya üzv olmuşuq ki, ilk növbədə Qarabağ problemi həll edilsin. Məsələ bunda idi. Biz bilirdik ki, Ermənistan Avropa Şurasına üzv olmağa can atır. Biz istəyirdik ki, biz də orada olaq və bu məsələ ədalətli şəkildə həll edilsin. Ancaq biz nəyi görürük: ədalətsizlik, ikili standartlar, islamafobiya, paxıllıq, bədniyyət. Bax, bu yaxınlarda Avropa Oyunları zamanı qətnamə qəbul edirlər. Qətnamənin məruzəçilər tərəfindən təklif edilmiş mətnində yazılmışdır ki, assambleya nəzərə alır ki, Azərbaycan torpaqları işğal altındadır. Götürüb o cümləni dəyişirlər, yazırlar ki, assambleya nəzərə alır ki, Dağlıq Qarabağ münaqişəsi mövcuddur. Yəni, bu, nə deməkdir?! Bu, açıq-aydın anti-Azərbaycan mövqeyidir. Ona görə yenə də bu mövzuya qayıdıram. Biz heç yerə inteqrasiya olmuruq. Hara olmuşuq, kifayətdir. Lazım olarsa, yenə də başqa birliklərə də üzv olarıq, ancaq bərabərhüquqlu tərəfdaş kimi, ləyaqətli ölkə kimi.

Ötən yarımilliyin sosial-iqtisadi göstəricilərinin nikbin fikirləşməyə əsas verdiyini bildirən ölkə başçısı qeyd edib ki, hətta böhranlı illərdə Azərbaycan sürətlə inkişaf edə bilər. “Çünki bizim düşünülmüş siyasətimiz var. Bizim proqramlarımız reallıq üzərində qurulubdur. Hər bir məsələ, hər bir sahə ilə bağlı çox konkret fəaliyyət planı var”.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev yenə də ordu quruculuğu məsələlərinə toxunub və bildirib ki, ordu quruculuğu bizim üçün daim prioritetdir və Xəzər sahilində ən böyük hərbi obyektlərdən biri bu il Azərbaycanda istifadəyə verilibdir. “Hərbi dəniz qüvvələri bazası yaradılmışdır. Bütün digər lazımi tədbirlər görülür, hərbi şəhərciklər, bazalar tikilir, təmir olunur, əsgərlər, zabitlər üçün gözəl şərait yaradılır. Təbii ki, silah-sursat, maddi-texniki təminat daim diqqət mərkəzindədir. Ən müasir silah, texnika alınır və bu gün Azərbaycan Ordusu, dediyim kimi, dünya miqyasında güclü ordular sırasındadır.

Bugünkü beynəlxalq vəziyyət bir daha onu göstərir ki, biz vaxtilə nə qədər düzgün addımlar atmışıq. Çünki biz görürük ki, beynəlxalq hüquq normaları işləmir. Kimin gücü varsa, o da haqlıdır və bu, reallıqdır. Bu, xoşagəlməyən reallıqdır, ancaq biz real dünyada yaşayırıq, biz virtual dünyada yaşamırıq. Ona görə hərbi güc gələcəkdə hər bir ölkənin maraqlarını ilk növbədə təmin edən amil olacaqdır. Çünki beynəlxalq hüquq normaları sadəcə olaraq belə çıxır ki, o qədər də böyük olmayan ölkələr üçün yazılıb. Beynəlxalq davranış qaydaları dəyişilir, kim necə istəyir beynəlxalq hüquq normalarını elə də yozur və nəticə etibarilə biz görürük ki, güc amili bir çox məsələləri həll edir. Biz də buna hazır olmalıyıq və hazırıq. Ona görə gələcəkdə də ordu quruculuğu, hərbi potensialın gücləndirilməsi bir nömrəli vəzifə olacaqdır. Nəzərə alsaq ki, biz müharibə şəraitində yaşayırıq, əlbəttə, bu, daha da ciddi diqqətə malik olmalıdır”.

Prezident çıxışında təəssüflə vurğulayıb ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində heç bir irəliləyiş yoxdur. “Ermənistan sadəcə olaraq danışıqlar prosesini boykot edir və çalışır ki, bu məsələni maksimum dərəcədə uzatsın. Ancaq məsələ uzandıqca Ermənistan daha da çox tənəzzülə uğrayır. Qeyd etdiyim kimi, ölkə dərin siyasi, mənəvi, psixoloji və maliyyə böhranı içindədir. Ölkənin inkişafı üçün heç bir resurs yoxdur. İqtisadiyyat çöküb, sənaye ölüb, insanlar ölkəni tərk edir, yəni, insan resursları da yoxdur. Belə getsə, gələcəkdə Ermənistan kimi ölkə bəlkə də dünya xəritəsində heç olmayacaq da. Əgər belə olarsa, bunun günahkarı ancaq bugünkü kriminal diktatura rejimidir.

Biz isə güclənirik, öz tədbirlərimizi görürük, iqtisadi, siyasi, hərbi güc toplayırıq. Əlbəttə ki, Ermənistan və Azərbaycan müqayisəedilməz səviyyədədir. Sadəcə olaraq, xarici maliyyə, hərbi və siyasi dəstək hesabına Ermənistan hələ ki, bizim torpaqlarımızı işğal altında saxlayır. Mən bu auditoriyada bir dəfə demişəm ki, bizim torpaqlarımızı işğal edən təkcə Ermənistan deyil. Bizim torpaqlarımızı işğal edən Ermənistanın havadarları, ermənipərəst, islamofob siyasətçilər, anti-Azərbaycan qüvvələrdir. Ermənistan bizim torpaqlarımızı işğal edə bilərmi? Bir həftə ərzində orada daş daş üstündə qalmaz. Bu da reallıqdır və yenə də deyirəm, biz real dünyada yaşayırıq, öz tədbirlərimizi görürük və gün gələcək Azərbaycan öz ərazi bütövlüyünü təmin edəcək. Hələ ki, biz bu istiqamətdə bütün hazırlıq işlərini görürük”.

Dövlətin siyasi kursunun Azərbaycan xalqının milli maraqları üzərində qurulduğunu bəyan edən Prezident çıxışı zamanı Bakıda uğurla başa çatmış Birinci Avropa Oyunlarına toxunaraq deyib: “Avropa Oyunları ərəfəsində və Oyunlar zamanı bizə qarşı informasiya müharibəsi ən şiddətli mərhələyə qədəm qoymuşdu. Ancaq bu informasiya müharibəsində Azərbaycan xalqı və dövləti qalib gəlib. Çünki bu kampaniya və bu kampaniyanın son mərhələsi bir daha göstərib ki, heç bir kənar qüvvə bizim iradəmizə təsir edə bilməz. Ancaq görün və Azərbaycan xalqı bir daha görsün ki, nə qədər bunlar şərəfsiz hərəkətlər edirlər. Avropa Oyunlarının açılışına iki gün qalmış Avropa Parlamenti anti-Azərbaycan qətnaməsini müzakirəyə çıxarıb və çalışıb ki, bu qətnamə qəbul edilsin. Baxmayaraq ki, Avropa Parlamentinin sədri Şults, onun müavini Lunaçek və onların əlaltıları qatı anti-Azərbaycan mövqeyindədirlər və Azərbaycanı düşmən seçiblər, ancaq bu qətnamə keçmədi, 136 deputat lehinə, 136 deputat əleyhinə səs verdi. Əslində bu, Şultsun, Lunaçekin və onlar kimilərinin siyasi iflası idi. Əgər bunlarda bir balaca vicdan varsa, ondan sonra istefa verməli idilər. Gördülər ki, bu, keçmir, bəs nə etməli? Almaniya Bundestaqı Oyunların açılışı günündə - iyunun 12-də yığışır, qətnamə qəbul edir. Bu qətnamənin mövzusu anti-Azərbaycan və yalan üzərində qurulubdur. Sual olunur, Almaniya Bundestaqının bizimlə nə işi var və Almaniya Bundestaqı özünü nə zənn edir? Dünyanın ağasıdırmı? Dünyaya hakimdirmi? Hamı onlara tabe olmalıdırmı? Görünür ki, onlar pis öyrəşiblər. Amma bizi başqaları ilə müqayisə etməsinlər. Bizim onlarla münasibətlərimiz distansiya səviyyəsindədir. Bizim onlardan heç bir istəyimiz yoxdur, əksinə, bizim təbii qazımız, kontraktlarımız, neftimiz, bu ərazidə, bu coğrafiyada fəaliyyətimiz onlara lazımdır. Biz isə onlardan texnologiya alırıq. Onlardan almasaq, başqa yerdən alarıq. Onlardan heç bir asılılığımız yoxdur. Ona görə Almaniya Bundestaqı kimdir ki, anti-Azərbaycan qətnamə qəbul etsin?! Azərbaycan uğurla inkişaf edir, dünyada müsəlman ölkəsi - Azərbaycan bu gün Avropa Oyunlarını hansı səviyyədə keçirir. Avropa Oyunları Olimpiya Oyunları səviyyəsində keçirilib. Onlardan fərqli olaraq buraya gələn qonaqlar, Avropanın dəyərli nümayəndələri, adi insanlar, idmançılar Azərbaycana heyran qaldılar, valeh oldular, sevdilər, getmək istəmirdilər. Mənə deyirlər ki, bəzi idmançılar yarışları başa çatandan sonra getmək istəmirdilər, axıra qədər qalmaq istəyirdilər.

Bir sözlə, bax, budur bugünkü vəziyyət. Bununla bərabər Avropa ölkələri ilə ikitərəfli formatda bizim problemlərimiz yoxdur. Bir çox hallarda Avropanın aparıcı ölkələrinin liderləri ilə görüşlər əsnasında mən, əlbəttə ki, bütün bu iradları deyirəm. Deyirlər ki, fikir verməyin, onlar o fikrə layiq deyillər. Biz fikir vermirik. Əgər fikir versəydik, onların dediklərini edərdik. Burada heç kim onların dediklərinin birini də etməyəcək. O qətnamələr bizim üçün kağız parçasıdır. Ona görə heç kim onları heç vaxt icra etməyəcək. Bunu bilsinlər, Azərbaycan xalqı bilsin və o çirkin yazıları tərtib edənlər də bilsinlər. Azərbaycanla diktat dili ilə danışmaq olmaz, Azərbaycanla dost, tərəfdaş olmaq olar. Biz buna hazırıq və gələcəkdə, bax, bu istiqamətdə gedəcəyik”.

**AZƏRTAC-ın materialları əsasında**

Ramazan bayramı münasibəti ilə Silahlı Qüvvələrin şəxsi heyətinə

## Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Yoldaş zabitlər, gizirlər, miçmanlar, çavuşlar, əsgərlər və matroslar!

Sizi Ramazan bayramı münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.

Xalqımızın milli-mənəvi dəyərlərini daim yüksək tutan ümummilli lider Heydər Əliyev milli və dini adət-ənənələrimizin qorunub saxlanılmasına layiqli töhfələr vermişdir. Məhz ulu öndərimizin hakimiyyəti dövründə ölkəmizdə sağlam dövlət-din və dinlərarası münasibətlər qurulmuşdur. Bu gün Azərbaycanda sabitlik, inkişaf, birlik, vicdan azadlığı və tolerantlığın hökm sürməsi, ölkəmizin dünyanın multikulturalizm mərkəzinə çevrilməsi ulu öndər Heydər Əliyevin təməlini qoyduğu müdrik siyasətin bəhrəsidir. Bərabərlik və mənəvi təmizlik kimi yüksək əxlaqi hisslər aşılayan, nəsildən-nəslə ötürülərək bu günümüzə qədər yaşadılan Ramazan bayramı Azərbaycanda yüksək səviyyədə qeyd olunur.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında ölkəmiz sivil və demokratik inkişaf yolu ilə inamla irəliləyir. Respublikamız dünya dövlətləri arasında dini tolerantlıq nümunəsi kimi tanınıb. Bu gün ölkəmizdə iqtisadiyyatın dinamik inkişafı təmin edilib, əhalinin həyat səviyyəsi yaxşılaşıb, dövlətimizin müdafiə qüdrəti artıb, müstəqilliyimiz daha da möhkəmlənib.

İnanıram ki, bundan sonra da Azərbaycan Respublikası Konstitusiyasına, Hərbi Anda və Nizamnamələrə sadiq qalaraq respublikamızın ərazi bütövlüyünün bərpa edilməsi, torpaqlarımızın işğalçılardan azad olunması naminə xidməti borcunuzu şərəf və vicdanla yerinə yetirəcək, döyüş və mənəvi-psixoloji hazırlığın daha da yüksəldilməsində səylərinizi artıracaqsınız.

Hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və xidmətinizdə uğurlar arzulayıram.

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

## Düşmənin istənilən təxribatının qarşısı qətiyyətlə alınacaq

Bu günlərdə Müdafiə Nazirliyinin Mətbuat Xidməti ölkənin kütləvi informasiya vasitələrinin çoxsaylı sorğularına cavab olaraq bildirib ki, Azərbaycanın cəbhə boyu ərazilərində yerləşən yaşayış məntəqələri Ermənistan silahlı qüvvələri tərəfindən atəşə tutulduğu hallarda, həmçinin qarşı tərəfin atəşkəsi pozduğu zaman düşmənə aman verilməyəcək. Məlumatda göstərildiyi kimi, Müdafiə naziri general-polkovnik Zakir Həsənov yaşayış məntəqələrimizin ermənilər tərəfindən atəşə tutulması hallarında atıcı silahların əhatə dairəsindən uzaq olan düşmən mövqelərinə, erməni əhalisinin sıx yerləşdiyi yaşayış məntəqələrinə və oradakı hərbi obyektlərə Azərbaycan Ordusunun sərəncamındakı iriçaplı silahlardan dərhal zərbə endirilməsi barədə xüsusi tapşırıq verib.

Atəşkəsi müntəzəm pozmaqda davam edən erməni silahlı bölmələri tərəfindən nəinki ordumuzun mövqeləri, hətta yaşayış məntəqələrimiz və əkin sahələrində təsərrüfatla məşğul olan soydaşlarımız atəşə məruz qalırlar. Bu barədə vaxtaşırı beynəlxalq təşkilatların məlumatlandırılmasına baxmayaraq, işğalçı tərəf yenə də bəd əməllərindən əl çəkmir. Əlbəttə, belə olan halda torpaqlarımızın müdafiəsində dayanan Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin istənilən təxribatının qarşısı qətiyyətlə alınacaq.

**"Azərbaycan Ordusu"**

## Naxçıvan Muxtar Respublikasında döyüş atışlı gecə taktiki təlimləri keçirilib

Silahlı Qüvvələrin 2015-ci ilin döyüş hazırlığı planına əsasən, bütün birlik və birləşmələrdə istənilən hava, məhdud görmə və relyef şəraitində intensiv döyüş atışlı taktiki təlimləri keçirilir.

Naxçıvan Muxtar Respublikasının müdafiə potensialının gücləndirilməsi və Əlahiddə Ümumqoşun Ordusunun döyüş qabiliyyətinin artırılması istiqamətində də zəruri tədbirlər həyata keçirilir.

Əlahiddə Ümumqoşun Ordusunun hissə və bölmələrinin şəxsi heyəti, zirehli texnikası, aviasiya vasitələri, hava hücumundan müdafiə sistemləri, raket və artilleriya qoşunlarının cəlb olunması ilə döyüş atışlı gecə taktiki təlimləri keçirilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə naziri Qazaxıstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşüb

***İyulun 15-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Qazaxıstan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Saken Jasuzakovla görüşüb.***



Ölkələrimiz arasında ənənəvi dostluq və qardaşlıq əlaqələrindən məmnunluq ifadə olunan görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil sahələrindəki əməkdaşlıq və qarşılıqlı etimadın güclənməsinə xidmət edən fəaliyyətlər, dövlətlərimizin regional təhlükəsizliyi məsələləri müzakirə olunub.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan Müdafiə naziri vurğulayıb ki, ərazilərimiz hələ də işğal altında saxlanılır və səbri tükənmiş Azərbaycan xalqı torpaqlarımızın tezliklə azad olunmasını tələb edir. Eyni zamanda Müdafiə naziri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regiondakı sabitliyə təhlükə yaratdığını, problemin beynəlxalq hüququn normaları və prinsipləri çərçivəsində həllinə nail olunmasının vacibliyini diqqətə çatdırıb.

Azərbaycana səfərindən məmnunluğunu bildirən qonaq Silahlı Qüvvələrimizin, hərbi, müdafiə infrastrukturunun və sənayesinin yüksək səviyyədə inkişafını vurğulayaraq ölkəsinin bu təcrübədən istifadə edəcəyini deyib.

Sonra Azərbaycan-Qazaxıstan hərbi əlaqələrinə və qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

Görüşdə Qazaxıstan Respublikasının ölkəmizdəki hərbi attaşesi polkovnik Almas Bazarbayev iştirak edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Pentaqonla əlaqələrini bərpa edir

Bir ilə yaxındır ki, Azərbaycanın ABŞ ilə əlaqələrində soyuqluq müşahidə olunur. ABŞ Dövlət Departamentinin ölkəmizə qarşı münasibətdə qeyri-konstruktiv siyasətinə baxmayaraq, Azərbaycan bütün dünyaya özünün nailiyyət və müvəffəqiyyətlərini nümayiş etdirir. Dövlət Departamenti tərəfindən provokasiya xarakterli yazılar və fəaliyyətlər Azərbaycana 1-ci Avropa Oyunlarını yüksək səviyyədə keçirməsinə, sabit iqtisadi inkişafa nail olunmasına, bütün dünyadan olan jurnalistlərə və qonaqlara ölkəmizdəki demokratiya və azadlığı öz gözləri ilə görmələrinə imkan verilməsinə mane ola bilmədi. Bütün bunlar bizim Silahlı Qüvvələrin döyüş qabiliyyətinin real yüksəldilməsi fonunda baş verir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov ABŞ-ın ölkəmizdəki hərbi attaşesini Müdafiə Nazirliyinə dəvət edərək onunla fikir mübadiləsi aparıb və hərbi əməkdaşlıq sahəsində yaranmış soyuqluqdan təəssüf hissini ifadə edib. General-polkovnik N.Sadıkov qeyd edib ki, Dövlət Departamentinin ölkəmizə qarşı yürütdüyü ikili standartlar siyasətinə baxmayaraq, biz NATO-nun etibarlı tərəfdaşı kimi cıxış etməkdə davam edirik və Əfqanıstanda bizə həvalə olunmuş missiyanı uğurla yerinə yetiririk.

Danışıqların sonunda general-polkovnik N.Sadıkov Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Pentaqon və NATO ilə hərbi əməkdaşlığı davam etdirməyə, bizim hərbi qurumlar arasında etibarın tam bərpa olunmasına hazır olduğunu bəyan edib. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi bundan sonra Dövlət Departamentinin rəsmi şəxsləri tərəfindən hərbi əməkdaşlıq planlarının yerinə yetirilməsinə mane olması cəhdlərinin təkrarlanmayacağına, hərbçilərin isə razılaşdırılmış, təsdiq olunmuş planların siyasətçilər tərəfindən pozulmasına uymayacaqlarına və ölkələrimiz arasında qarşılıqlı fəaliyyətin və əməkdaşlığın daha yüksək səviyyəyə qaldırılacağına ümüdini ifadə edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Qazaxıstan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Azərbaycana rəsmi səfərə gəlib








***İyulun 13-dən Qazaxıstan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Saken Jasuzakovun rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə rəsmi səfəri başlayıb.***

Qonaqlar əvvəlcə Fəxri xiyabana gələrək ümummilli lider Heydər Əliyevin və görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarlarını, Şəhidlər xiyabanında isə Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanların məzarlarını ziyarət edərək əklillər və gül dəstələri qoyublar.

Sonra Müdafiə Nazirliyində rəsmi qarşılanma mərasimi keçirilib. Qonaq fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin Dövlət himni səsləndirilib və protokola uyğun olaraq "Şərəf Kitabı" imzalanıb.

Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovla general-polkovnik S.Jasuzakov arasında əvvəl təkbətək, sonra isə geniş tərkibdə görüş keçirilib.

Görüşdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində ərazilərimizin işğal olunması faktı, qaçqın və məcburi köçkün soydaşlarımızın mövcudluğu qonaqların diqqətinə çatdırılıb.

Sonra tərəflər hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlıq, Silahlı Qüvvələrin nümayəndələrinin qarşılıqlı təcrübə mübadiləsi, Xəzər dənizi hövzəsində, o cümlədən ölkələrimizin yerləşdikləri regionlarda təhlükəsizlik məsələlərini ətraflı müzakirə ediblər.

Sonda Azərbaycan və Qazaxıstan Silahlı Qüvvələrinin Baş Qərargahları arasında əməkdaşlıq haqqında niyyət protokolu imzalanıb.

Ölkəmizə səfəri çərçivəsində Qazaxıstan nümayəndə heyətinin Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, Ali Hərbi Dənizçilik Məktəbi, Silahlı Qüvvələrin Hərb Oyunları Mərkəzi, Hərbi Dəniz Qüvvələrinin bazası və Azərbaycan sülhməramlıları ilə tanışlığı planlaşdırılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan Respublikasının Müdafiə naziri və Silahlı Qüvvələrin Baş Qərargah rəisi Rusiya tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Sergey Şoyquya və Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Rusiya Federasiyası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi ordu generalı Valeri Gerasimova Rusiya Federasiyasının Omsk şəhərindəki hərbi hissədə insan itkisilə nəticələnən bədbəxt hadisə ilə əlaqədar başsağlığı məktubu ünvanlayıblar.

Məktubda bildirilir: "Rusiya Federasiyası Hava Desant Qoşunlarının təlim mərkəzindəki kazarmanın uçması nəticəsində çoxsaylı insan tələfatı və xəsarət alanlar barədə xəbər bizi sarsıtdı.

Faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına öz adımızdan və Silahlı Qüvvələrin şəxsi heyəti adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyir və tezliklə sağalmalarını arzu edirik".

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edirlər

İyulun 13-dən 17-dək Oberammerqau şəhərində (Almaniya) "Kiçik, yüngül silahlar və minalarla bağlı fəaliyyətlər" kursu və iyulun 13-dən avqustun 9-dək İstanbul şəhərində (Türkiyə) "Açıq dəniz təlimi" keçirilir.

Tədbirlərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edirlər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***15 iyul 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 80 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber, Noyemberyan rayonunun Şavarşavan, Dovex kəndlərində yerləşən mövqelərindən Qazax rayonunun Qızılhacılı, Fərəhli və Kəmərli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Gülüstan, Talış, Tapqaraqoyunlu, Tərtər rayonunun Çiləbürt, Göyarx, Qızıloba, Ağdam rayonunun Şuraabad, Şıxlar, Qaraqaşlı, Cəvahirli, Kəngərli, Sarıcalı, Yusifcanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Qaraxanbəyli, Horadiz, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonlarının ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

# Azərbaycanda veteranların hüquqları ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bərpa olunub

***İyulun 13-də Respublika Veteranlar Təşkilatında ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə qayıtmasının 46-cı ildönümü münasibətilə tədbir keçirilib.***




AZƏRTAC xəbər verir ki, tədbiri açan Respublika Veteranlar Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev bildirib ki, 1969-cu il iyulun 14-də xalqımızın böyük oğlu, ulu öndər Heydər Əliyevin Azərbaycanda rəhbərliyə seçilməsi ölkəmizin tarixində yeni mərhələnin başlanğıcı olub. Həmin gün qüdrətli dövlətin, milli dəyərlərin, sosial tərəqqinin və mənəvi yüksəlişin əsası qoyulub. Dahi lider hakimiyyətə gəldiyi ilk gündən bütün varlığı ilə xalqımızın xoşbəxt gələcəyi naminə misilsiz xidmət göstərib.

Qeyd olunub ki, ulu öndərin Azərbaycana rəhbərlik etdiyi və böyük siyasətdə olduğu 40 ildən artıq dövr xalqımızın taleyində tarixi rol oynayıb. Azərbaycanın hər bir bölgəsində ümummilli liderin quruculuq fəaliyyətinin izləri yaşayır. Ölkəmizin gələcək müstəqilliyini düşünən uzaqgörən lider gənclərimizin SSRİ-nin nüfuzlu ali təhsil müəssisələrində oxumaları üçün şərait yaradıb. Məhz o dövrdə yüksək ixtisaslı kadr kimi yetişən gənclərimiz bu gün müstəqil Azərbaycanın qüdrətlənməsinə xidmət göstərirlər.

Dadaş Rzayev qeyd edib ki, ulu öndər Heydər Əliyevin təməlini qoyduğu Cəmşid Naxçıvanski adına Hərbi Lisey dahi rəhbərin milli hərbi təhsilin bütün sahələrdə inkişafına yüksək diqqət və qayğısının bariz nümunəsidir. Sovet dövründə azərbaycanlılar sırf milli mənsubiyyətlərinə görə hərbi kadr hazırlığına və SSRİ hərbi elitasına yaxın buraxılmırdılar. Belə bir dövrdə Heydər Əliyevin Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasına nail olması əsl qəhrəmanlıq nümunəsi idi.

Azərbaycanın müstəqil dövlət kimi formalaşmasında ulu öndər Heydər Əliyevin əvəzsiz xidmətlərindan danışan Dadaş Rzayev vurğulayıb ki, ümummilli liderin ən böyük sevinci ölkəmizin müstəqilliyi idi. Dahi Heydər Əliyev şəxsiyyətinin Azərbaycanın dövlətçilik tarixində müstəsna yeri var. Heydər Əliyev müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının inkişafına, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olub. Dövlət müstəqilliyinin qorunub saxlanması ilə bağlı xalqın tələbinə dərhal cavab verərək 1993-cü ilin iyununda Bakıya gələn Heydər Əliyevin iyunun 15-də respublika rəhbəri seçilməsi ilə müstəqil dövlətçilik tarixinin ikinci dövrü başlandı. Ulu öndər Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, eləcə də beynəlxalq əlaqələrində dönüş yarandı. Ümummilli liderin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami Silahlı Qüvvələrin yaradılması və torpaqlarımızın müdafiə olunması ilə bağlı mühüm addımlar atıldı. Ulu öndərin uzaqgörənliklə müəyyən etdiyi daxili və xarici siyasətin nəticəsidir ki, müstəqil Azərbaycan beynəlxalq aləmdə qüdrətli, zəngin, demokratik ölkə kimi mövqeyini gündən-günə möhkəmləndirir.

Ölkəmizdə veteranların hüquqlarının ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bərpa olunduğunu vurğulayan Dadaş Rzayev deyib: "1994-cü il 28 iyun tarixdə "Veteranlar haqqında" qanun qəbul olundu. Veteranların sosial və məişət problemləri həll olunmağa başlandı. Bu iş bu gün Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Qələbənin 70 illiyi ölkəmizdə təntənə ilə qeyd edildi. Yüzlərlə veteranımız maşınlarla, mənzillərlə təmin olundu. Bu gün əyləşdiyimiz bu gözəl bina Qələbənin 70 illiyində möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən Respublika Veteranlar Təşkilatına layiqli hədiyyədir".

Digər çıxış edənlər də ulu öndər Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısında müstəsna xidmətlərindən, o cümlədən ölkəmizdə qanunçuluğun möhkəmləndirilməsi istiqamətində gördüyü təxirəsalınmaz tədbirlərdən danışıblar. Diqqətə çatdırılıb ki, ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin fəaliyyəti ölkənin sürətli inkişafına, müasirləşməsinə, demokratiyanın və vətəndaş cəmiyyətinin daha da möhkəmlənməsinə yönəlib. Azərbaycanın sosial-iqtisadi imkanlarının ildən-ilə artması, dünyanın inkişaf etmiş dövlətləri ilə eyni cərgədə dayanması böyük uzaqgörənliklə davam etdirilən iqtisadi inkişaf strategiyasının məntiqi nəticəsidir.

Tədbirdə Respublika Veteranlar Təşkilatının rəyasət heyətinin üzvləri və mərkəzi aparatının işçiləri, Bakı rayonlarının veteranlar təşkilatlarının sədrləri iştirak ediblər.

# Avropa Parlamentinin iclasında qəbul edilən qətnamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək ifadə olunur

***Avropa Parlamentinin Strasburqda keçirilən plenar iclası çərçivəsində məruzəçi Eduard Kukanın hazırladığı "Avropa Qonşuluq Siyasətinin nəzərdən keçirilməsi" adlı qətnamə layihəsi qəbul edilib.***

Azərbaycanın Belçika və Lüksemburqdakı səfirliyi, Avropa İttifaqı yanında nümayəndəliyinin məlumatına görə, qətnamədə qonşuluq ərazisinin böyük hissəsinin silahlı münaqişələrdən əziyyət çəkdiyi qeyd olunub, bu ərazidə mövcud həlli uzadılmış münaqişələrin iqtisadi, sosial və siyasi dəyişikliyə əngəl törətdiyi vurğulanıb.

Sənəddə qonşuluq siyasətinin inkişafına başlıca maneə törədən həlli uzadılmış münaqişələrin (həm Şərq, həm də Cənub istiqamətində) həllində Avropa İttifaqının daha fəal rol oynamasının vacibliyi qeyd edilir. Avropa Qonşuluq Siyasəti ölkələri ilə münasibətlərdə dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə dəstək verilməsinin başlıca prinsip olduğu xüsusi vurğulanır və bu xüsusda bir dövlət tərəfindən digərinin ərazisinin işğalının yolverilməz olduğu bəyan edilir. Qətnamədə bir daha tərəfdaş ölkələrin suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyinə dəstək ifadə olunur, eləcə də Avropa Qonşuluq Siyasətinin bu prinsiplərə töhfə verməklə yanaşı, onları dəstəkləməsinin vacibliyi vurğulanır.

Həmçinin qeyd olunur ki, qətnamə Avropa Parlamentinin bundan əvvəlki (2013-cü il 23 oktyabr) qətnaməsinə istinad edib və burada Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqe ifadə olunub.

"Şərq Tərəfdaşlığına üzv bir ölkəsinin digərinin ərazisini işğal etməsi Şərq Tərəfdaşlığının fundamental prinsip və məqsədlərini pozur. Dağlıq Qarabağ münaqişəsi BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsi əsasında həll olunmalıdır", - deyə qətnamədə vurğulanıb.

**AZƏRTAC**

# Azərbaycanın Milli Qəhrəmanı, şəhid Rafiq Alıcanovun 50 illik yubileyi təntənə ilə qeyd edilib






***Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Ağstafa rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Azərbaycanın Milli Qəhrəmanı, şəhid, kapitan Rafiq Cəfər oğlu Alıcanovun 50 illik yubileyi təntənə ilə qeyd edilib.***



Rayon ictimaiyyətinin, hərbi qulluqçuların, respublikamızın müxtəlif guşələrindən gəlmiş qonaqların iştirakı ilə Səməd Vurğun adına Ağstafa şəhər parkında keçirilən yubiley mərasiminin bir qrup iştirakçısı tədbirdən qabaq Heydər Əliyev parkına gedərək ulu öndərin xatirəsini ehtiramla yad edərək abidəsi önünə çiçəklər qoyublar. Sonra Milli Qəhrəman Rafiq Alıcanovun büstü önünə də gül dəstələri düzülüb.



Yubiley mərasimini Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsi rəisinin müavini polkovnik Abdulla Qurbani açaraq qeyd edib ki, Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətən torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdikləri şəxsi igidliyə, şücaətə və xidməti borclarının yerinə yetirilməsində göstərdikləri misilsiz xidmətlərə görə Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülən Vətən övladları heç vaxt unudulmur, xatirələri xalqımız və dövlətimiz tərəfindən daim əziz tutulur. "Həyat və döyüş yolları gənclərimiz, eləcə də Vətən əsgərləri üçün nümunə olan Milli Qəhrəmanlarımızın xatirə günlərinin, anım mərasimlərinin və yubileylərinin təşkili artıq ənənə şəklini alıb. Müdafiə Nazirliyinin rəhbərliyi gənclərin vətənpərvərlik tərbiyəsində, eləcə də Silahlı Qüvvələrin şəxsi heyətinin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsində müstəsna əhəmiyyət kəsb etdiyini nəzərə alaraq bu kimi tədbirlərə xüsusi önəm verir".

Şəhidlərin xatirəsi "Rekviyem"in sədaları altında bir dəqiqəlik sükutla yad edilib, hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət himni ifa olunub.

Milli Qəhrəmanın ömür yolundan bəhs edilərək qeyd olunub ki, Rafiq Alıcanov 1965-ci ildə Qazax rayonunun Kəmərli kəndində anadan olub. Bir neçə ildən sonra valideynlərinin işi ilə əlaqədar Ağstafa rayonunun Köçvəlli kəndinə köçüblər. Kənd orta məktəbini bitirdikdən sonra müvəffəqiyyətlə imtahan verərək Kalininqrad Ali Hərbi Mühəndislik Məktəbinə daxil olub. Sovet İttifaqı Silahlı Qüvvələrində xidmət edərkən kapitan rütbəsinədək yüksəlib.

Ermənistanın torpaq iddiaları ilə Azərbaycana qarşı təcavüzünün başladığı ilk günlərdən doğma yurda qayıtmaq üçün mücadilələr etsə də, yalnız 1992-ci ilin avqustunda Vətənə qayıda bilib. İlk günlərdən mühəndis-istehkam qoşunlarının yaranması və formalaşmasında xüsusi səylər göstərib. Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Kəlbəcər, Goranboy, Ağdərə, Tərtər, Ağdam, Füzuli, Qubadlı, Cəbrayıl, Zəngilan və Naxçıvan kapitan Alıcanovun döyüşdüyü, qorunmasında iştirak etdiyi, iz qoyduğu bölgələrdir. Bütün cəbhə boyu son dərəcə təhlükəli tapşırıqlara rəhbərlik edən istehkamçı peşəkar zabit yüzlərlə döyüşçünü ölümün pəncəsindən xilas edib, düşmənin texnika və canlı qüvvə sarıdan xeyli itki verməsinə nail olub.




1993-cü ilin payızında Füzuli rayonu uğrunda gedən döyüşlərdə xüsusi qəhrəmanlıqlar göstərib, yaralı vəziyyətdə əsir düşsə də, düşmənlərin ağır işgəncələrinə məruz qalsa da, öz şərəfli ölümü ilə Azərbaycan zabitinin yenilməzliyinin simvoluna çevrilib. O, ulu öndər Heydər Əliyevin 16 sentyabr 1994-cü il tarixli fərmanı ilə ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülüb. Ağstafa şəhərində və ailəsinin yaşadığı paytaxt Bakıda adına küçələr var. Təhsil aldığı kənd orta məktəbi indi onun adını daşıyır.

Ağstafa rayon İcra Hakimiyyəti başçısının birinci müavini Ramiz Tatarov öz çıxışında bildirib ki, ağstafalılar 1918-20-ci illərdə daşnaklara qarşı mübarizədə, Böyük Vətən müharibəsi illərində, eləcə də müstəqillik uğrunda, Qarabağ uğrunda döyüşlərdə həmişə əsl vətənpərvərlik nümunələri göstəriblər. Həm Sovet İttifaqı Qəhrəmanlarının, həm də Milli Qəhrəmanların sıralarında ağstafalı oğulların da adları var. Bu bölgə beş Milli Qəhrəman və 130-dan çox şəhidin məskənidir. Hazırda Silahlı Qüvvələrin bütün qoşun növlərində yüzlərlə ağstafalı xidmət edir, xüsusi təyinatlı təhsil müəssisələrində zabitlik peşəsinə yiyələnən gənclərin sayı ildən-ilə artır. Ordu quruculuğundakı son illərin uğurları bütün xalqımız kimi ağstafalıları da sevindirir. Müdafiə Nazirliyinin təşəbbüsü ilə rayonlarda keçirilən kütləvi tədbirlər xalq ilə ordunun birliyini daha da möhkəmləndirir.



Bir həftədir ki, ön səngərlərdə şəxsi heyətlə görüşlər keçirən Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradov, həmçinin bu ali təhsil ocağının bir qrup professor-müəllim və tələbəsi də Milli Qəhrəmanın yubiley təntənəsinə qatılıb. Professor Ədalət Muradov bu tədbirdə iştiraklarının təsadüfi olmadığını qeyd edərək bildirib ki, qəhrəmanın qızı bu universitetin magistraturasını bitirib, əsgərliyini başa vurmuş oğlu isə hazırda 3-cü kursda təhsil alır. Qəhrəmanın övladları universitet rəhbərliyinin də qayğısı ilə əhatə olunub və bundan sonra da daim diqqətdə saxlanılacaqlar.

Millət vəkili, professor Xanhüseyn Kazımlı, polkovnik Elşad Əbilov, əsgər atası, iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent Bulud Sadıxov, şəhid qardaşı, baş müəllim İbrahim Quliyev, Qarabağ müharibəsi veteranları, əlilləri və şəhid ailələri ictimai birliyinin Ağstafa bölməsinin sədri, şəhid atası Yaqub İsmayılov və başqaları Vətən uğrunda həlak olan şəhidlərimizin adlarının əbədiləşdirilməsi, xatirələrinin əziz tutulması istiqamətində ölkə və Müdafiə Nazirliyi rəhbərliyinin apardığı məqsədyönlü işin böyük əhəmiyyət kəsb etdiyini vurğulayıblar.



Qəhrəmanın qardaşı, Qarabağ müharibəsi veteranı Ramiz Alıcanov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə, Müdafiə Nazirliyi və rayon rəhbərliyinə şəhid ailələrinə göstərdikləri diqqət və qayğıya görə ailələri adından minnətdarlıqlarını bildirib.

Atası şəhid olarkən 3 aylığında olan Elvin Alıcanovun çıxışı tədbir iştirakçılarına duyğulu anlar yaşadıb: "Mən atamın üzünü görməmişəm. Yalnız onun dəfn mərasimini video lentlərdə seyr etmişəm. Fəxr edirəm ki, mənim atamın cənazəsi Azərbaycan Respublikasının Dövlət Bayrağına bükülüb və mənim zabit atam yaylım atəşləri altında Vətən torpağına - son mənzilə uğurlanıb. Mən də yaşıdlarımdan biri kimi işğal altındakı torpaqlarımızı azad etmək üçün Ali Baş Komandanın hər bir əmrinə daim hazıram".



Mərasim başa çatdıqdan sonra bir qrup tədbir iştirakçısı və Milli Qəhrəmanın oğlu düşmənlə təmas xəttində Vətən torpaqlarının keşiyini çəkən əsgərlərə baş çəkmək üçün ön səngərlərə yollanıblar.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Xəbərlər: hadisələr, faktlar

## Hərbi Desant Qoşunlarının kazarmasının uçması nəticəsində 12 nəfər ölüb



Rusiyanın Omsk şəhərində Hərbi Desant Qoşunlarının kazarması uçub. APA-nın RİA "Novosti"yə istinadən verdiyi məlumata görə, hadisə iyulun 12-də axşam saatlarında baş verib. Rusiya Müdafiə Nazirliyindən bildirilib ki, hadisə nəticəsində 12 nəfər həlak olub, daha 19 nəfər xəstəxanadadır.

- İndiyədək dağıntılar altından 31 nəfər çıxarılıb. Onlardan 12-si ölüb, 19-u xəstəxanadadır, - deyə general-mayor İqor Konaşenkov bildirib.

Faktla bağlı Rusiya Cinayət Məcəlləsinin "Səhlənkarlıq" maddəsinin üç hissəsi üzrə cinayət işi başlanıb.

## Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı 2015-ci ildə dənli bitkilər istehsalının artacağını proqnozlaşdırır



Əlverişli hava şəraiti sayəsində 2015-ci ildə dənli bitkilərin məhsuldarlığı gözlənildiyindən daha yüksək olacaq. Bu il dünyada taxıl istehsalı 2527 milyon ton təşkil edəcək.

AZƏRTAC BMT Xəbərlər Mərkəzinə istinadla xəbər verir ki, bu barədə məlumat Birləşmiş Millətlər Təşkilatının (BMT) Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) məruzəsində yer alıb.

Ekspertlər vurğulayırlar ki, taxıl istehsalının artım sürətinin yüksəlməsi FAO-nun ərzaq qiymətləri indeksinin aşağı düşməsinə gətirib çıxaracaq. Ötən ay indeks, demək olar, bir faiz enib və 2009-cu ilin sentyabrından ən aşağı səviyyəyə düşüb.

## Türkiyə polisi İstanbulda genişmiqyaslı antiterror əməliyyatı keçirib



Türkiyə polisinin İstanbulda keçirdiyi genişmiqyaslı antiterror əməliyyatı nəticəsində 32 nəfər həbs edilib. Ələ keçirilmiş dəstə üzvləri son bir ayda törədilən qəsdən adamöldürmə cinayətlərində, terror aktlarının təşkilində və həyata keçirilməsində, silahlı hücumlar hazırlamaqda və digər qanunsuz fəaliyyətlərdə təqsirli bilinirlər.

Türkiyə KİV-in məlumatına görə, həbs olunanlar Kürd Fəhlə Partiyasının (PKK) üzvləridir. Əməliyyat keçirilən ünvanlardan xeyli sayda silah-sursat, o cümlədən əldəqayırma partlayıcılar, maskalar və digər qadağan olunmuş vasitələr götürülüb.

## Ukraynanın qərbində silahlı toqquşmada 3 nəfər ölüb, daha 11 nəfər isə yaralanıb



Ukraynanın Zakarpat vilayətindəki Mukaçevo şəhərində "Sağ sektor" təşkilatının üzvlərinin törətdiyi hücum nəticəsində 3 nəfər ölüb, daha 11 nəfər isə yaralanıb.

APA-nın "RİA Novosti"yə istinadən verdiyi xəbərə görə, bu barədə Zakarpat prokurorluğundan bildirilib.

Hadisə yerinə gələn milis əməkdaşları kafedən çıxışı bağlayıblar, lakin silahlı şəxslər milis işçilərini qumbaraatanlardan, "Kalaşnikov" avtomatlarından və "DŞK" pulemyotlarından atəşə tutublar. Bəzi məlumatlara görə, hücuma məruz qalmış idman klubu yerli deputat Mixail Lanyoya məxsusdur.

## Gürcüstanda üzrsüz səbəblərdən parlamentin iclaslarında iştirak etməyən deputatların əmək haqları kəsiləcək



Bununla əlaqədar parlamentin prosedur məsələləri və hüquq komitəsi yeni qanun layihəsi hazırlayıb. Yeni dəyişikliklərə əsasən, deputatlar "ailə vəziyyətinə görə" iclaslardan artıq yayına bilməyəcəklər. Deputatların iclaslarda iştirak etməmələri yalnız qanuni ezamiyyət və ya xəstəliklə əlaqədar olduqda üzrlü sayılacaq. Xəstəlik səbəbindən iclasa gəlməyən deputat, bununla əlaqədar parlament rəhbərliyinə müvafiq sənəd təqdim etməlidir. Deputatlar üzrsüz səbəbdən iştirak etmədikləri hər iclasa görə əmək haqqının 10 faizini itirəcək.

Qanunverici orqanın sədri David Usupaşvili bu il iclaslara ən çox gəlməyən 10 deputatın adlarını açıqlayıb. Siyahıya eks-prezident Mixeil Saakaşvilinin Vahid Milli Hərəkat Partiyasının deputatları başçılıq edirlər.

## Srebrenitsa qurbanlarının anım mərasimində 70 minədək insan iştirak edəcək



Srebrenitsa soyqırımının 20-ci ildönümü ilə bağlı keçiriləcək anım mərasimində 70 minədək insan iştirak edəcək.

Potoçaridəki memorial mərkəzdə keçirilən mərasimdə bu il ABŞ-ın keçmiş Prezidenti Bil Klinton, BMT baş katibinin müavini Jan Mari Genno və başqaları iştirak edəcək. Bu dəfə memorial mərkəzin qəbiristanlığında 20 il bundan əvvəl baş vermiş soyqırımının son zamanlar şəxsiyyəti müəyyən edilən 136 qurbanının qalıqları dəfn ediləcək.

Ekspertlərin fikrincə, 1995-ci ilin iyul ayında Srebrenitsa şəhərində 8 minə qədər müsəlman öldürülüb. Keçmiş Yuqoslaviyaya dair Beynəlxalq Tribunal və Beynəlxalq Məhkəmə bu hadisəni soyqırımı kimi tanıyıb.

## Hakerlər təxminən 20 milyon amerikalı dövlət qulluqçusunun şəxsi məlumatlarını oğurlayıblar



ABŞ hökuməti hakerlərin fəaliyyəti nəticəsində təxminən 20 milyon amerikalı dövlət qulluqçusunun şəxsi məlumatlarının oğurlandığı barədə məlumat yayıb.

İnsident barədə məlumat hələ aprel ayında yayılsa da, o zaman xeyli az - cəmi 4 milyon insanın şəxsi məlumatlarının ələ keçirildiyi bildirilmişdi. Oğurlanan sənədlərdə məmurlar barədə, demək olar ki, hər şey - gözlərinin rənginə, pis vərdişlərinə və şəxsi maliyyə əməliyyatlarına qədər hər bir məlumat əksini tapıb. Anketlərdə təkcə məmurlar deyil, onların həyat yoldaşları və uşaqları barədə də məlumatlar var.

**AZƏRTAC-ın materialları əsasında**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Dövlət İqtisad Universitetinin professor-müəllim və tələbələri cəbhə bölgəsində

***Azərbaycan Respublikası Müdafiə Nazirliyinin ictimaiyyətlə əlaqələri gündən-günə genişlənir. Nazirliklər, idarə-müəssisələr, yerli icra hakimiyyəti orqanları və qeyri-hökumət təşkilatları ilə birgə təşkil edilən kütləvi vətənpərvərlik mərasimləri ordu ilə xalqın monolit birliyinin nümayişinə çevrilir və bu kimi silsilə tədbirlər gənclərin orduya hazırlanması, onların hərbi ənənələr əsasında vətənpərvərlik tərbiyəsi və Silahlı Qüvvələr şəxsi heyətinin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsində mühüm əhəmiyyət kəsb edir.***



Azərbaycan Dövlət İqtisad Universitetinin rektorluğu, professor-müəllim və tələbə heyəti Silahlı Qüvvələrin şəxsi heyəti ilə daim əlaqə saxlayır. Bir neçə ay öncə universitetdə cəbhə bölgələrindən dəvət edilmiş döyüş və mənəvi-psixoloji hazırlıq əlaçıları ilə görüş keçirilmiş, ön səngərdə əsgəri borclarını şərəf və vicdanla yerinə yetirdiklərinə, xidmətdə fərqləndiklərinə görə onlar bu təhsil ocağının xüsusi hədiyyələri ilə mükafatlandırılmışlar.

Bir həftə öncə universitetin rektoru, professor Ədalət Muradov Müdafiə naziri general-polkovnik Zakir Həsənova müraciət edərək bir qrup professor-müəllim və tələbənin düşmənlə təmas xəttində xidmət keçən hərbi qulluqçularla görüşmək, problem və qayğıları ilə maraqlanmaq, onlara mənəvi dayaq olmaq arzusunda olduqlarını bildirmişdi. Rektorun müraciəti Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən razılıqla qarşılanmış və onlara istənilən bölgələrə getmələri üçün şərait yaradılmışdı.



Artıq professor Ədalət Muradovun rəhbərlik etdiyi Azərbaycan Dövlət İqtisad Universitetinin bir qrup professor-müəllim və tələbəsinin cəbhə bölgələrinə səfəri başa çatıb.



Bir həftə davam edən səfər zamanı onlar Goranboy, Göygöl, Gədəbəy, Tovuz, Qazax və digər bölgələrdə olmuş, şəxsi heyətlə görüşmüş, onların xidmət şəraitləri ilə tanış olmuş, hərbi qulluqçuların problem və qayğıları ilə maraqlanmışlar.

Dəniz səviyyəsindən 3 min metrdən çox yüksəkliklərdə olan zirvələrdə Vətən torpaqlarının keşiyində ayıq-sayıq dayanan, düşmən kəşfiyyat-təxribat qruplarının qarşısını mərdliklə alan, hər gün atəşkəs rejimini bir neçə dəfə pozan Ermənistan silahlı bölmələrinin vaxtında layiqli cavabını verən əsgər və zabitlərlə görüşlər onların Azərbaycan Ordusuna və qələbəyə inamını daha da artırıb.

Professor Ədalət Muradov deyir: "Mən memarı xalqımızın ümummilli lideri Heydər Əliyev olan və ulu öndərimizin ordu quruculuğu siyasətini Prezident kimi fəaliyyətində prioritet bilən Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan Ordusunun regionda ən güclü ordu olduğunu bilirdim. Ancaq ön səngərdə gördüklərim, hərbi qulluqçuların sosial-məişət şəraiti, ərzaq təminatı, hər şeydən öncə isə onların döyüş hazırlığı və vətənpərvərlik ruhu məni bir daha əmin etdi, sevindirdi. Bizi müşayiət edən Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbaninin - Əsgəri güllə yox, laqeydlik, ona qarşı soyuq münasibət öldürür. Silahlı Qüvvələrdəki bu inkişafı, bu uğuru görməyən, qiymətləndirməyən elə nankorlar var ki, hələ də ordumuzun bostanına daş atmaqdan usanmırlar, - fikri ilə tam raziyam. Mən bu səfərdən çox böyük təəssüratlarla, yenidən böyük bir qrupla Vətən əsgərləri ilə görüşə qayıtmaq arzusu ilə cəbhə bölgələrindən geri döndüm. Əsgər üçün nə etsək azdır. Bu gün "Hər şey ordu üçün, hər şey qələbə üçün!" şüarı bütün ölkəni əhatə etməlidir..."



Əsgər və zabitlər millət vəkili, iqtisad elmləri doktoru, professor Xanhüseyn Kazımlının çıxışlarını da böyük maraqla qarşılamış və onun dəfələrlə cəbhə bölgələrində olmasını digər ziyalılarımıza nümunə göstərmişlər. Professor hərbi hissələrə "Böyük siyasətin davamı" adlı çoxcildliyinin çapdan çıxmış 7 cildini hədiyyə etmişdir.



Universitetin "Qiymət və qiymətləndirmə kafedrası"nın əməkdaşları, iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent Bulud Sadıxov, baş müəllim, dosent İbrahim Quliyev, Milli Qəhrəman Rafiq Alıcanovun oğlu, tələbə Elvin Alıcanov və başqaları döyüşçülərlə səmimi söhbətlər etmiş, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda başlanacaq döyüşlərdə Vətən əsgərləri ilə bir yerdə olacaqlarını bildirmişlər.



Universitetin kollektivi adından hərbi hissəyə, xidmətdə fərqlənən hərbi qulluqçulara qiymətli hədiyyələr və fəxri fərmanlar verilmişdir.

Polkovnik Oruc Abdullayev şəxsi heyət adından qonaqlara dərin minnətdarlığını bildirərək onları əmin etmişdir ki, bundan sonra da Vətənimizin və xalqımızın milli təhlükəsizliyini etibarlı qoruyacaq, əsgəri borclarını şərəflə yerinə yetirəcəklər.

Səfər çərçivəsində professor-müəllim və tələbələr Goranboy rayonunda şəhid Etibar Xudavi oğlu Kazımovun ölümündən sonra təltif olunduğu "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalın ailəsinə təqdim olunması mərasimində, Ağstafa şəhərində Azərbaycanın Milli Qəhrəmanı kapitan Rafiq Alıcanovun 50 illik yubileyinə həsr olunmuş yubiley mərasimində iştirak etmiş, cəbhəyanı bölgədəki kəndlərin əhalisi ilə görüşmüş və onlarla maraqlı söhbətlər etmişlər.

Cəbhə bölgələrindən qayıdarkən professor Ədalət Muradovun rəhbərlik etdiyi qrup Gəncə şəhərindəki hərbi hissədə gənc əsgərlər və onların valideynləri ilə görüşüb. Gənc əsgərlər arasında Azərbaycan Dövlət İqtisad Universitetinin də xeyli məzununu görən professor və müəllimlər bundan böyük qürur duyduqlarını bildirib, onlara xidmətlərində uğurlar arzulayıblar.

Qərara alınıb ki, cəbhə bölgələrinə səfər təəssüratlarından ibarət "Ön səngərdə nələr gördük" adlı kitab-albom hazırlanaraq nəşr etdirilsin.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Unutmayaq!

*1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:*

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

## İdman

### Azərbaycan komandası tələbələrin 28-ci Yay Universiadasında daha bir qızıl medal qazanıb



Azərbaycan atleti Hayle İbrahimov Koreya Respublikasının Kvancu şəhərində keçirilən tələbələrin 28-ci Yay Universiadasında kişilərin 5000 metr məsafəyə qaçış yarışında 13:44.28 dəqiqə göstərici ilə birinci olub. Kvancu şəhər stadionunda idmançılar yağışlı hava şəraitində mübarizə aparmalı olublar. Bu da onların potensialını tam nümayiş etdirməyə imkan verməyib. Qeyd etmək lazımdır ki, bu, idmançımızın universiadalarda qazandığı ikinci qızıl medaldır. Xatırladaq ki, digər atletimiz Hanna Skidan qadınlar arasında çəkicatma yarışlarında qalib olmuşdu. Cüdoçümüz Hüseyn Rəhimli (73 kq) isə bürünc medal qazanmışdı.

### UEFA futbol klublarının yeni reytinq siyahısını açıqlayıb

UEFA futbol klubların yeni reytinq siyahısını açıqlayıb. AZƏRTAC xəbər verir ki, Azərbaycanın 7 futbol klubunun yer aldığı reytinq cədvəlində ən yüksək göstərici Ağdamın "Qarabağ" komandasına məxsusdur. Ağdam təmsilçisi 10.750 xalla 135-ci pillədə qərarlaşıb. "Neftçi" 159-cu, "İnter" 272-ci, "Xəzər-Lənkəran" 291-ci, "Qəbələ" 335-ci, "Bakı" və AZAL isə 356-cı pillədə yer alıblar. Azərbaycan ölkələrin reytinq cədvəlində 11,250 xalla 28-cidir.

### Quba Milli Qolf Klubu növbəti beynəlxalq yarışa uğurla ev sahibliyi edib



İyulun 12-də Quba Milli Qolf Klubunda "Turkish Airlines World Golf Cup" beynəlxalq qolf turnirinin seçim mərhələsi keçirilib. Beynəlxalq yarışda Azərbaycan da daxil olmaqla, dünyanın müxtəlif ölkələrindən 50 nəfərdən çox qolfçu iştirak edib. Gərgin idman mübarizəsi şəraitində keçən turnirdə A kateqoriyası üzrə I yeri Bong Hvan Seo, II yeri Rob Donoghue, III yeri isə Sean Harrison qazanıb. B kateqoriyasında isə birinciliyi Yeong Gil Jeong əldə edib. Onun ardınca Michael Leather ikinci, Onofrio Donghia isə üçüncü olub.

### Velosipedçimiz Çində üçüncü yeri tutub



Azərbaycanın kontinental velosiped komandasının "Synergy Baku Cycling Project" Çində keçirilən sayca 14-cü "Tour de Qinghai Lake" yürüşündə idmançımız üçüncü olub. AZƏRTAC xəbər verir ki, komandamızın üzvlərindən ən yüksək göstəriciyə Matey Müqerli imza atıb. O, finişi mərhələ qalibi, İtaliyanın "Lampre-Merida" dünya turu komandasının üzvü İlya Koşevoydan 55 saniyə sonra keçərək üçüncü yeri tutub.

Yeddi mərhələdən sonra komanda hesabında "Synergy Baku" altıncı pillədəki mövqeyini qoruyur. Yarışa iyulun 18-də yekun vurulacaq.

### Qadın güləşçilərin beynəlxalq reytinq cədvəlində 8 idmançımız yer alıb

Dünya Güləş Birliyi 2015-ci ilin iyun ayında keçirilən yarışların nəticəsinə əsasən, qadın güləşi üzrə yeni reytinq siyahısını açıqlayıb. AZƏRTAC xəbər verir ki, qadın güləşçilərin reytinq sıralamasında 8 idmançımızın adı var. Ötən ay Bakıda keçirilmiş ilk Avropa Oyunlarında parlaq qələbələr qazanmaqla qızıl medala sahib olan Mariya Stadnik siyahıda 2-ci yerdədir. Avropa Oyunlarının bürünc medalçısı Nataliya Sinişin 55 kiloqram çəki dərəcəsində üçüncü pilləyə yüksəlib. U-23 Avropa çempionatının qalibi Alyona Kolesnik isə bir pillə irəliləyərək 4-cü yerə yüksəlib.

**AZƏRTAC-ın materialları əsasında**

Kapitan Abdullayev Səbuhi Ağasəlim oğluna 2012-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Miçman Bəbirov Fərhad Vaqif oğluna 2008-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu Məmmədzadə Vüsal Əli oğluna 2013-cü ildə verilmiş şəxsi vəsiqə, hərbi bilet və sürücülük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 584
Nüsxə 4700